

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 243 (23.405)

*24 dekabr 2019-cu il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Dekabrın 23-də müasir müstəqil Azərbaycanın tarixində növbəti bələdiyyə seçkiləri günüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva səs vermək üçün Bakı şəhərinin 29 saylı Səbail Seçki Dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsinə gəliblər.

Prezident İlham Əliyev səsvermə otağına daxil olub seçki bülletenini alaraq kabinəyə keçib və sonra bülleteni qutuya salıb.

Sonra birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva səs veriblər.

* * *

Prezident İlham Əliyev həmin gün bir qrup yerli jurnalistə ilin yekunları ilə əlaqədar müsahibə verib.





# Ümummilli liderin inam və ümidlərini, xalqın etimad və etibarını doğruldan Prezident

***Ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycan dövlətinə onun ideya və əməllərinin ən sadiq davamçısı Prezident cənab İlham Əliyevin rəhbərlik etməsinin 16-cı ili tamam oldu. Xalqımız üçün taleyüklülüyü ilə önəmli olan, ölkəmiz üçün bir-birindən uğurlu keçən bu illər çağdaş Azərbaycan tarixinə müstəqil, qüdrətli dövlət quruculuğunun hərtərəfli yeniləşmə və ümumi tərəqqi mərhələsi kimi daxil olmuşdur.***

Dünya üçün risklərlə dolu olan bir dövrdə Cənubi Qafqaz kimi mürəkkəb geosiyasi məkanda uğurlu siyasət aparmaq üçün müstəsna siyasi-diplomatik məharət, eyni zamanda strateji hədəflərin düzgün müəyyənləşdirilməsi tələb olunur. Ötən dövrdə həyatın bütün sahələrində əldə olunan nəticələr dönə-dönə sübut etmişdir ki, Azərbaycanın dövlət başçısı cənab İlham Əliyev dünya miqyasında qəbul edilən yenitipli siyasətçi və öz xalqının alternativsiz milli lideridir. Təsadüfi deyil ki, ötən illərdə zəmanəmizin məşhur yazıçısı Çingiz Aytmatov Azərbaycan Prezidenti cənab İlham Əliyevi "qloballaşan dünyanın müasir liderinin etalonu" kimi xarakterizə etmişdi.

Müstəqil Azərbaycan dövləti cənab İlham Əliyevin ölkəmizə ali rəhbərliyi illərində Cənubi Qafqazın lider dövlətinə çevrilmişdir. Azərbaycan xalqının sevilən və hərtərəfli dəstək qazanan prezidenti kimi ən yüksək bir imic qazanmış cənab Prezident çox böyük hörmət və şöhrət mərtəbəsinə yüksəlmişdir. Dövlət rəhbərinin uğurlu daxili və xarici siyasəti nəticəsində hazırda ölkəmizin beynəlxalq aləmdə nüfuzu çox yüksəkdir və bu proses durmadan davam edir.

Azərbaycan Respublikası xalqımızın ümummilli lideri, qüdrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin müəyyən etdiyi siyasi kursu onun siyasi varisi Prezident cənab İlham Əliyevin uğurla davam etdirməsi nəticəsində dünya birliyindəki mövqeyini möhkəmləndirir və inamla irəliləyir. Ulu öndərin siyasi kursu dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi prinsiplərinə söykənir. Ölkənin iqtisadi və sosial inkişafı, demokratik cəmiyyətin qurulması, milli təhlükəsizlik və xarici siyasət problemlərinin həlli, milli-mənəvi dəyərlərin inkişafı istiqamətində görülən işlər, bütövlükdə, müstəqillik amilinin praktik baxımdan bərqərar olmasına yönəlmişdir.

Son 16 ildə ümummilli lider Heydər Əliyevin siyasi kursunun davam etdirilməsinin labüdlüyü, ilk növbədə, Azərbaycanın dövlətçilik maraqlarının gerçəkləşdirilməsi ilə şərtlənmişdir. Belə bir zamanda ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli dövlətçilik konsepsiyasının varisliyinin təmin olunması zərurəti həmin siyasətin uğurlarını öz həyatının başlıca təminatı kimi qəbul edən xalqımızın sosial sifarişi kimi meydana çıxmışdır. Azərbaycanda müstəqil dövlətçilik ənənələrini formalaşdıran ümummilli lider Heydər Əliyevin xalq qarşısındakı ən böyük xidməti də məhz müəllifi olduğu siyasi xəttin davamlılığını təmin etməsi, respublikamızın gələcək uğurlarının etibarlı təminat yaratması olmuşdur.

Azərbaycan üçün strateji əhəmiyyət daşıyan bu kursun davam etdirilməsi istəyinin cəmiyyətdə ciddi sosial sifarişə çevrilməsi isə ulu öndərin öz siyasətində hər bir vətəndaşın maraq və mənafelərini incəliklə nəzərə almasından irəli gəlmişdir. Yalnız ümummilli lider Heydər Əliyev kimi böyük dühanın ən yaxın çevrəsində zəngin dövlətçilik məktəbi keçən, müasir bilik və təcrübəyə yiyələnən, hərtərəfli yetkinləşən bir şəxsiyyət onun layiqli siyasi və mənəvi varisi olmaq şansı və etimadı qazana, bunun üçün cəmiyyətdən mütləq dəstək ala bilərdi.

Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev 2 003-cü il prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına tarixi müraciətində cənab İlham Əliyevi yeni mərhələdə ölkəyə rəhbərlik etməyə qadir şəxsiyyət kimi gördüyünü bildirmiş, davam edən bir çox keçən dövrün gerçəkləri ulu öndərin Azərbaycanı sürətlə irəli aparıb, sivil ölkələr səviyyəsinə çatdırmaq məqsədi daşıyan strateji inkişaf kursunu Prezident cənab İlham Əliyevin məxsusi bir məharətlə və böyük uğurla davam etdirdiyini qəti olaraq təsdiqləyir.

Məsul icra vəzifələrinin öhdəsindən yüksək bacarıqla gələn gənc siyasətçi kimi ölkədə və ondan kənarda böyük maraqla izlənilən cənab İlham Əliyev ali rəhbər seçilməzdən əvvəl gözəl bilirdi ki, ölkəni prezident səviyyəsində idarə etmək üçün, hər şeydən əvvəl, yüksək dövlət idarəçiliyi təcrübəsinə malik olmaq lazımdır. Buna görə də ulu öndərin ən yaxın silahdaşı və siyasi varisi olaraq o, dövlət işlərin onun tərəfindən uğurla başa çatdırılacağına dərin inamını ifadə etmişdir: ***"O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

Ümummilli lider Heydər Əliyevin siyasi vəsiyyəti kimi qəbul edilmiş bu tarixi səciyyələndirmədən

*Ardı 2-ci səhifədə*

başçısı olmazdan əvvəl çox mühüm vəzifələrdə – Milli Olimpiya Komitəsinin prezidenti, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, Milli Məclisin deputatı və Avropa Şurası Parlament Assambleyasında ölkəmizin nümayəndə heyətinin rəhbəri, nəhayət, Azərbaycan Respublikasının Baş Naziri kimi fəaliyyət göstərmiş, böyük idarəçilik səriştəsi qazanmışdı.

Prezident cənab İlham Əliyev öz sələfi ulu öndər Heydər Əliyevin siyasi xəttinin ən layiqli davamçısı olduğunu ötən illərdə həyata keçirdiyi düşünülmüş, müasir tələblərə tam cavab verə bilən siyasəti, milli dövlətçilik maraqlarına daim üstünlük verən fəaliyyəti ilə təsdiq etmişdir. Bütün dünyada olduqca intensiv, gərgin, ziddiyyətli və qarışıq proseslərin getdiyi, qlobal məsələlərdə qeyri-müəyyənliyin hökm sürdüyü bir mərhələdə müstəqil dövlət quruculuğu kursunu yaradıcı şəkildə inkişaf etdirmək, əlbəttə, həm də tarixi bir missiyadır. Bunu ölkə vətəndaşları bildiyi kimi, beynəlxalq aləm də görür, təhlil edir, dəyərləndirir. Dünyanın görkəmli siyasətçiləri, ictimai xadimləri, elm və mədəniyyət nümayəndələri, tanınmış dövlət adamları ölkəmizin rəhbəri cənab İlham Əliyevin fəaliyyətini yaxından izləyir və onu çox yüksək qiymətləndirirlər. Azərbaycan lideri beynəlxalq aləmdə təşəbbüskar və yüksək enerjili siyasətçi, öz ölkəsinin ictimai həyatına və siyasətinə yeni nəfəs, müasirlik və intellektuallıq gətirmiş modern dövlət başçısı kimi səciyyələndirilir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev, həqiqətən, siyasi fəaliyyəti dövründə özünü böyük idarəçilik və təşkilatçılıq qabiliyyətinə malik böyük dövlət xadimi, islahatçı Prezident kimi təsdiq etmiş, lider səviyyəsinə yüksəlmiş və beynəlxalq aləmdə belə də dəyərləndirilir. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan rəhbərinə yüksək və səmimi münasibətini belə ifadə etmişdir: "Siz həmvətənləriniz arasında və xaricdə haqlı olaraq təcrübəli və uzaqgörən siyasi xadim, öz ölkəsinin həqiqi lideri kimi nüfuz qazanmısınız". ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə sabiq müşaviri, politoloq Zbiqnev Bjezinski cənab İlham Əliyevin liderlik keyfiyyətlərindən bəhs edərkən bildirmişdir: "Mən onu 16 ildən artıq bir müddətdir ki, tanıyıram. Bu müddət ərzində onun Prezident vəzifəsinə yüksələ bilmək qabiliyyəti mənə yaxşı təəssürat bağışlayır. O, enerjili, ağıllı bir gənc idi. İndi isə o, özünə inamlı, ciddi dövlət adamıdır və Avropanın həmin hissəsində öz mühüm rolu və konstruktiv mövqeyi ilə seçilir".

Tanınmış ABŞ politoloqu, professor Brenda Şaffer isə Azərbaycan rəhbərinə müraciətlə söyləmişdir: "Xalqınıza sadiqliyiniz, yüksək təhsil və bilik səviyyəniz, idarəçilik qabiliyyətiniz kifayət qədər bəllidir və mən əminəm ki, siz Azərbaycanı daha böyük tərəqqiyə və təhlükəsizliyə doğru aparacaqsınız. Siz peşəkarcasına rəhbərlik etmək qabiliyyətinizi müxtəlif forumlarda nümayiş etdirirsiniz". Cənab İlham Əliyevi Azərbaycan üçün şans adlandıran ABŞ-ın respublikaçı konqresmeni Kurt Yeldon isə onunla görüşündən sonra yazmışdır: "Fikirlərini bu qədər aydın ifadə edən milli liderə rast gəlməmişdim. Yüksək təhsilli cənab İlham Əliyev uzaqgörən dövlət xadimidir. O, ölkənin ən çətin problemləri barədə açıq danışır və bunları həll etmək qərarında qətidir".

Belə mötəbər qiymətlər davamlı olaraq eşidilir və hər birimizdə haqlı iftixar yaradır: "Azərbaycan Sizin müdrik rəhbərliyinizlə cəmiyyət həyatının bütün sahələrinin müasirləşdirilməsi yolunda ardıcıl və dinamik surətdə irəliləyir. Sizin dünya miqyasında yeritdiyiniz uzaqgörən və praqmatik siyasətiniz, ölkənin milli mənafelərini qətiyyətlə qorumaq və müdafiə etməkdə xüsusi bacarığınız sayəsində Azərbaycan regional və beynəlxalq gündəlikdə olan ən mühüm məsələlərin həllində fəal rol oynayır" (Rəşid Alimov, Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi); "Beynəlxalq arenada artıq islahatçı Prezident kimi tanınmış cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan modernləşib və inkişaf etmiş ölkəyə çevrilib. O, təcrübəli və uzaqgörən siyasi xadim keyfiyyətlərinə yiyələnmiş dövlət başçısıdır" (An-Mori Lizii, belçikalı siyasətçi); "Prezident cənab İlham Əliyev müasir dünyanın böyük dövlət xadimlərindən biridir" (Abdullah Mətuq Əl-Mətuqa, Beynəlxalq İslam Xeyriyyə Təşkilatının sədri).

Prezident cənab İlham Əliyevə belə mötəbər münasibət və geniş beynəlxalq etimad birdən-birə yaranmamışdır. Prezidentin gərgin səyləri, böyük zəhməti, qətiyyətli fəaliyyəti, idarəetmə səriştəsi, təşkilatçılıq qabiliyyəti ona belə yüksək nüfuz və hörmət qazandırmışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin özü isə uca məramını, liderlik hədəflərini belə açıqlamışdır: ***"Mənim siyasətim ondan ibarətdir ki, əməli-praktik işlərlə məşğulam. Azərbaycana xarici investisiyalar cəlb etməklə, yeni iş yerlərinin açılması ilə məşğulam. Mənim aləmimdə siyasət belə olmalıdır. Yəni siyasət hansısa konkret nəticə ilə yekunlaşmalıdır. Əsl siyasət konkret, real iş görməkdən ibarətdir".***

Bütün bu deyilənlər bir daha onu göstərir ki, ulu öndər Heydər Əliyevin strateji inkişaf kursu ötən illərdə cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir. Ölkə başçısı prezidentlik fəaliyyətinin ilk günlərindən respublikamızın sosial-iqtisadi cəhətdən sürətli və dinamik inkişafına, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına, regionların inkişafına çox böyük önəm vermişdir.

Dövlət başçısının 2003-cü il 24 noyabr tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanı ölkə iqtisadiyyatında mütərəqqi inkişaf meyillərinə böyük təkan vermişdir. Ölkə rəhbəri cənab İlham Əliyevin 2004-cü il 11 fevral tarixdə təsdiqlədiyi "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı" isə Azərbaycan regionlarının tarazlı və davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulmasına səbəb olmuşdur.

Artıq sayı dördə çatmış bu dövlət proqramları çərçivəsində atılmış ardıcıl addımlar uzun illər regionların sosial-iqtisadi tərəqqisinə mane olan köklü problemləri aradan qaldırmış, yerlərdə infrastrukturun yeniləşdirilməsinə maddi zəmin yaratmışdır. Regional inkişaf proqramlarının əsas məqsədi isə bu sahədə həyata keçirilən siyasətin davamı olaraq ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır. Bu proqramların icrası sayəsində respublikada çoxsaylı yeni müəssisələr istifadəyə verilmiş, 15 min kilometr asfalt yol çəkilmiş, 3 mindən çox məktəb, 650-yə yaxın tibb müəssisəsi tikilib, yaxud təmir edilərək istifadəyə verilmişdir.

Prezident cənab İlham Əliyev ulu öndərin müəllifi olduğu yeni neft strategiyasını da uğurla davam etdirmişdir. Strateji neft və qaz kəmərlərinin inşasının başa çatdırılması ilə ölkə rəhbəri Azərbaycanın bölgədəki lider mövqeyini daha da möhkəmləndirmiş, regionun digər dövlətlərindən fərqli olaraq müstəqil xarici və iqtisadi siyasət yeritdiyini bütün dünyaya sübut etmişdir. Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol kimi Bakı-Tbilisi-Qars yeni dəmir yolu xəttinin çəkilişinə dair razılığa gəlinməsi, bu beynəlxalq magistralın uğurla başa çatdırılması artıq regionun lider dövləti olan Azərbaycanın xaricdən maddi və mənəvi dəstək almadan iri maliyyə tutumlu layihələrin reallaşdırılmasına qadir olduğunu göstərmişdir.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz boru xəttinin istismara verilməsi isə gələcək layihələr üçün əsas olmuşdur. Dövlət başçısı Xəzərin neft yataqlarının mənimsənilməsi və istismarı haqqında müqavilənin – "Əsrin müqaviləsi"nin hazırlanmasına və həyata keçirilməsinə sanballı töhfə vermişdir. 1994-cü ildə bağlanmış bu müqavilədən 23 il sonra – 2017-ci il sentyabrın 14-də Bakıda "Azəri-Çıraq-Günəşli" yatağının işlənməsinin davam etdirilməsi barədə yeni "Əsrin müqaviləsi" imzalanmışdır. Prezident cənab İlham Əliyevin sistemli, düşünülmüş və əsaslı fəaliyyətinin nəticəsi olaraq müqavilənin fəaliyyət müddəti 2050-ci ilə qədər uzadılmışdır. Yeni müqavilədə Azərbaycanın iştirak payı artırılaraq 11,6 faizdən 25 faizə çatdırılmış, ölkəmizə çatacaq mənfəət neftinin payı 75 faizə qaldırılmışdır.

Azərbaycanın neft-qaz sahəsində əldə etdiyi uğurlar Avropanın enerji təhlükəsizliyi məsələsində də ciddi rol oynayır. Ölkəmiz Trans-Anadolu və Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə nail olmaqla, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan "Cənub Qaz Dəhlizi" layihəsinin aparıcı qüvvəsi kimi çıxış edir.

Ölkə başçısının mütəmadi olaraq regionlara səfərləri sürətli inkişafa səbəb olur, şəhər və rayonların sosial-iqtisadi inkişafı üçün əlavə maliyyə dəstəyi göstərilir. Nəticədə, regionların sosial-iqtisadi inkişafı sürətlə davam edir, xalqın rifahı naminə ardıcıl və sistemli tədbirlər görülür. Son 16 ildə ölkəmizdə 2 milyondan artıq iş yeri yaradılmış, işsizlik 40 faizdən 5 faizə, yoxsulluq 45 faizdən 5 faizə enmişdir. Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə artmışdır. Ümumi daxili məhsulun həcmi, təqribən, 80 milyard manata çatmışdır. Dövlət büdcəsi 1,2 milyard manatdan 26,9 milyarda yüksəlmişdir. Ötən illərdə ölkə iqtisadiyyatına 250 milyard dollardan artıq investisiya qoyulmuş, Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan 50 milyard dollar həddinə çatmışdır.

Dövlət büdcəsinin görünməmiş səviyyədə artması, ümumi daxili məhsulun artım tempi, işsizliyin və yoxsulluğun azaldılması, sahibkarlığa kömək, qeyri-neft sektorunun inkişafı, çadır şəhərciklərinin ləğv edilməsi, qaçqın və məcburi köçkünlər üçün yeni-yeni qəsəbələrin istifadəyə verilməsi, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl olaraq atılan addımlar əldə olunan böyük uğurlardan xəbər verir. 2019-cu ildə gerçəkləşdirilən əsaslı sosial siyasət sahəsində çox böyük dəyişikliklər baş vermişdir. Sosial islahat paketləri 4,2 milyon nəfəri əhatə etmiş, minimum əməkhaqqı 250 manata çatmış, pensiya və müavinətlər əhəmiyyətli dərəcədə artmışdır.

Ölkəmizdəki dəyişikliklər, təkcə Bakı şəhəri və ətrafını əhatə etmir, bölgələrimizin siması da tanınmaz dərəcədə dəyişmişdir. Neçə illərdir ki, respublikamız əsl quruculuq meydanını xatırladır. Bakı şəhəri və paytaxtətrafı kəndlər, regionlar çox sürətlə qurulur, infrastrukturlar yaradılır – körpülər salınır, yollar çəkilir, şəhər və kəndlər müasirləşdirilir, abadlaşdırılır, qaz, su və enerji xətləri yeniləşdirilir. Bərpaolunan enerji mənbələri sisteminin yaradılmasına üstünlük verilir. Son illərdə 30-dan çox elektrik stansiyası istifadəyə verilmiş, yaşayış yerlərinin qazlaşdırılması 90 faizi ötmüşdür.

Azərbaycan artıq kosmik klubun azsaylı üzvlərindən biridir. Ölkəmizin üç telekommunikasiya peyki orbitə çıxarılmışdır. Dövlət başçısının reallaşdırdığı tədbirlər nəticəsində həyatın bütün sahələrində çox böyük nailiyyətlər qazanılmışdır. Çoxsaylı sənaye parkları və məhəllələri, texnoparklar yaradılmış, zavodlar tikilmişdir. Yeni-yeni istehsal sahələri işə salınmış, innovativ istehsal inkişaf etdirilmişdir.

Bir sözlə, ölkəmizin dayanıqlı inkişafı, əhalinin normal və yaxşı yaşayışı üçün nə lazımdırsa, edilir. Bunlar isə ölkə Prezidentinə respublika əhalisinin inam və sevgisini, hörmət və dəstəyini qazandırmışdır. ***"Azərbaycanda yoxsul adam olmamalıdır"*** prinsipi Prezident cənab İlham Əliyevin fəaliyyətində önəmli yer tutur və bu istiqamətdə əhəmiyyətli addımlar atılır.

Dövlət başçısı cənab İlham Əliyevin elm, təhsil və mədəniyyətimizin inkişafı istiqamətində həyata keçirdiyi siyasət ulu öndərin formalaşdırdığı ənənələrin uğurlu davamıdır. Elm, təhsil və mədəniyyətdə qazanılmış nailiyyətlər möhkəmləndirilmiş, bu sahələrin inkişafına diqqət və qayğı artırılmışdır. Təsadüfi deyil ki, ölkə Prezidenti respublikanın zəngin iqtisadi potensialının insan kapitalı ilə əvəzlənməsini son dərəcə vacib sayaraq demişdir: ***"İqtisadi inkişaf sürətinə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Biz bu maddi dəyərləri, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik, çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir".***

Son illərdə yeni təhsil müəssisələrinin tikilməsi, köhnə məktəblərin əsaslı surətdə təmir edilməsi və yenidən qurulması, onların maddi-texniki bazasının gücləndirilməsi, elm və təhsilə ayrılan vəsaitin artırılması, bu sahələrdə çalışan işçilərin sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində görülən işlər humanitar sahədə Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsini bir daha təsdiq edir.

Azərbaycanın siyasi, iqtisadi, hərbi sahədə əldə etdiyi uğurlar ölkəmizin beynəlxalq nüfuzunun artmasına səbəb olmuşdur. Nəticədə, bir sıra istiqamətlər üzrə Azərbaycan mövqeyini möhkəmləndirib və ölkəmiz irəli çıxmış – Avropa və Mərkəzi Asiyada daha çox islahat aparan 3 ölkədən biri hesab olunmuşdur. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsində 5-ci, xarici borcun ümumi daxili məhsulun nisbətinə görə 9-cu, dövlətlərin qüdrətini təsdiqləyən amillərə görə 80 ölkə arasında 45-ci yerdədir. Forumun son hesabatında Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinə görə 137 ölkə arasında 35-ci mövqeyə layiq görülmüşdür. Azərbaycan hərbi qüdrətinə görə 50 ən güclü silahlı birləşmələr sırasındadır.

Dövlət başçısı cənab İlham Əliyevin uğurlu xarici siyasət kursu da Azərbaycanın beynəlxalq aləmdə rolunun artmasına, nüfuzunun yüksəlməsinə səbəb olmuşdur. Bu həm də Azərbaycanı dünya birliyinin etibarlı tərəfdaşına çevirmişdir. Nəticədə, ölkəmizin müttəfiqlərinin və dostlarının sayı artmışdır. Xüsusilə Azərbaycan cəmiyyətini uzun illərdir, narahat edən Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş bir sıra uğurlu bəyanatlar, qərar və qətnamələr qəbul edilmişdir. Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu bildirilmiş, ölkənin ərazi bütövlüyü, suverenliyi Avropa İttifaqı, Qoşulmama Hərəkatı, İslam Konfransı Təşkilatı və başqa beynəlxalq təşkilatlar tərəfindən dəstəklənmişdir.

Dünya miqyasında dəyərləndirilən bütün bu nailiyyətlər bütün aydınlığı ilə göstərir ki, Prezident cənab İlham Əliyevin yüksək səriştəli idarəçiliyi ölkəmizin davamlı və dayanıqlı inkişafına səbəb olmuş, bütün sahələrdə əsaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş, həyata keçirilmiş islahatlar öz müsbət təsirini göstərmişdir. Bu hərtərəfli yeniləşmə və ümumi tərəqqi həm ölkəmizə, həm də dövlətimizin başçısına beynəlxalq aləmdə və xalqımız arasında böyük hörmət və nüfuz qazandırmışdır.

Ən önəmlisi isə odur ki, Prezident cənab İlham Əliyevin özünün də dediyi kimi, Azərbaycan tarixin heç bir mərhələsində indiki qədər güclü olmamışdır.

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***
***"Xalq" qəzeti, 22 dekabr 2019-cu il***



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan şəhərindəki 4-15 saylı seçki məntəqəsində səs verdi

2019-cu il dekabrın 23-ü ölkəmizdə növbəti bələdiyyə seçkiləri günüdür. Muxtar respublikada bələdiyyə seçkilərinin qanunvericiliyin tələblərinə uyğun keçirilməsi üçün zəruri tədbirlər görülüb, 7 seçki dairəsi üzrə 316 seçki məntəqəsi yaradılıb, 2122 namizəd qeydə alınıb. Bələdiyyə seçkilərində 170 bələdiyyəyə 1452 üzv seçilməsi nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin Heydər Əliyev adına tam orta məktəbdə yerləşən 4-15 saylı seçki məntəqəsində səs verdi.

Sonra Ali Məclisin Sədri seçki prosesinin gedişi ilə maraqlanıb.

Məlumat verilib ki, Naxçıvan şəhərindəki 4-15 saylı seçki məntəqəsində veb-kameralar quraşdırılıb, müşahidəçilər üçün yerlər ayrılıb. 1490 seçicinin qeydə alındığı məntəqədə fərdi qaydada və siyasi partiyalar tərəfindən namizədliyi irəli sürülən 29 namizəddən 17-si bələdiyyələrə seçiləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) məruzəsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 14.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) məruzəsi nəzərə alınsın.

2. İnsan hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı məsələlər gündəlik nəzarətdə saxlansın.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 dekabr 2019-cu il*

## Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2019-cu ildəki fəaliyyəti haqqında illik MƏRUZƏ

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) muxtar respublikada vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsinə, həmçinin bu hüquqların davamlı inkişafına yönəlmiş tədbirləri 2019-cu ildə də davam etdirmişdir.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkil təsisatının fəaliyyətinin yüksək səviyyədə təmin edilməsi, iş şəraitinin daha da yaxşılaşdırılması məqsədilə cari ildə təsisatın inzibati binasında təmir işləri aparılmışdır. Həyata keçirilən tədbirlər təsisatın fəaliyyətinin, həmçinin insan hüquq və azadlıqlarının müdafiəsi işinin daha səmərəli təşkilinə xidmət etmişdir.

2019-cu ildə Müvəkkil fəaliyyətini, əsasən, daxil olan müraciətlərin araşdırılması, insan hüquqlarının müxtəlif istiqamətləri üzrə müvafiq tədbirlərin həyata keçirilməsi, preventiv mexanizm funksiyasının icrası, dövlət orqanları, beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində həyata keçirmişdir.

2019-cu ildə Müvəkkilin ünvanına 87 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərin 34-nü şikayətlər, 53-nü isə ərizələr təşkil etmişdir.

Qanunun tələblərinə müvafiq olaraq şikayətlərin Müvəkkilin səlahiyyətlərinə aid olmaması, şikayətlə bağlı məhkəmə icraatının getməsi səbəbindən 6 şikayətə baxılmasından imtina edilmişdir. 28 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, onlardan 5-i təmin edilmişdir. 23 şikayətə baxılması zamanı isə hüquq pozuntusu aşkar edilməmişdir.

Daxil olan müraciətlərin araşdırılması ilə əlaqədar muxtar respublikanın dövlət və yerli özünüidarəetmə orqanlarına müvafiq sorğular ünvanlanmış, ərizəçilərə hüquqları izah edilmişdir.

2019-cu ildə də Müvəkkil insan hüquq və azadlıqlarının müdafiəsində mühüm əhəmiyyət kəsb edən hüquqi maarifləndirmə sahəsində fəaliyyətini, əsasən, insan hüquqlarının müxtəlif istiqamətləri üzrə və müxtəlif sosial qruplara ünvanlanan müvafiq tədbirlərin həyata keçirilməsi və maarifləndirici vəsaitlərin hazırlanması istiqamətində davam etdirmişdir.

Hər il olduğu kimi insan hüquqları sahəsində əlamətdar günlər "18 iyun – Azərbaycan Respublikasında İnsan Hüquqları Günü", "21 sentyabr – Beynəlxalq Sülh Günü", "10 dekabr – Beynəlxalq İnsan Hüquqları Günü" bir sıra tədbirlərlə qeyd edilmişdir.

Ümumilikdə, 2019-cu il ərzində Müvəkkil təsisatı tərəfindən müxtəlif sosial qruplara ünvanlanmış və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə 81 tədbir keçirilmiş, o cümlədən hüquqi maarifləndirici vəsaitlər təqdim edilmişdir.

2019-cu ildə hərbi qulluqçuların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmə daim diqqət mərkəzində olmuş və fəaliyyətin əlaqələndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Əlahiddə Ümumqoşun Ordu və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası ilə birgə hazırlanmış tədbirlər planına əsasən muxtar respublika ərazisindəki birləşmə və hərbi hissələrdə insan hüquqlarına dair tədbirlər keçirilmişdir.

Cari ildə məhkumların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmənin həyata keçirilməsi davam etdirilmiş, Ədliyyə Nazirliyi ilə hazırlanmış birgə tədbirlər planına əsasən cəzaçəkmə müəssisələrində insan hüquqlarının müxtəlif istiqamətləri üzrə maarifləndirici tədbirlər keçirilmiş, hüquqi vəsaitlər təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2019-cu ildə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 3 məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 1 məhkum xəstəliyə görə cəzanı çəkməkdən azad edilmiş, 3 məhkumun isə cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilmişdir. Ümumilikdə, 2019-cu il ərzində cəzaçəkmə müəssisələrində cəza çəkən 7 məhkum barəsində belə humanist tədbirlər tətbiq edilmişdir.

2019-cu ildə Müvəkkil preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 31 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 107 başçəkmə həyata keçirmiş, preventiv mexanizmin fəaliyyəti və insan hüquqlarının digər sahələri üzrə keçirilən maarifləndirmə tədbirlərində 1350 nəfər iştirak etmişdir.

Başçəkmələr zamanı saxlanma şəraiti, işçi heyətinin rəftarı, qida rasionu, qidanın keyfiyyəti, tibbi xidmətin vəziyyəti, onların asudə vaxtının təşkili kimi məsələlər xüsusi diqqət mərkəzində saxlanılmış, saxlanılan şəxslərlə görüşlər keçirilmiş, onlarla ümumi və fərdi söhbətlər aparılmış, hüquq və vəzifələri izah edilmişdir.

Qeyd edilməlidir ki, preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu müəssisələrdə saxlanılan şəxslərin sosial, tibbi, habelə qanunla müəyyən edilmiş digər hüquqlarının təmin edilməsi, həmçinin onların asudə vaxtının təşkil edilməsi üçün müasir standartlara uyğun müvafiq şərait yaradılmışdır.

2019-cu il ərzində Müvəkkil aparatında beynəlxalq təcrübə mübadiləsi sahəsindəki əlaqələrin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmış, beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri, xarici ölkələrin ölkəmizdəki səfirliklərinin nümayəndələri ilə keçirilən görüşlərdə, həmçinin Müvəkkilin iştirak etdiyi beynəlxalq konfranslarda muxtar respublikada insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlər, təsisatın fəaliyyəti barədə geniş məlumat verilmiş, təcrübə mübadiləsi və bu sahədə maraqdoğuran digər məsələlər müzakirə edilmişdir.

Cari ildə informasiya və ictimaiyyətlə əlaqələrin təşkili, muxtar respublikanın kütləvi informasiya vasitələri ilə əməkdaşlığın daha da genişləndirilməsi və fəaliyyətin əlaqələndirilməsi istiqamətində işlər davam etdirilmişdir.

Müvəkkilin rəsmi internet səhifəsinin informasiya yükü daha da artırılmış, Müvəkkil və təsisatın insan hüquqları sahəsində fəaliyyətinin işıqlandırılması ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının müasir inkişafı, tarixi-mədəni irsi və turizm potensialının təbliği işi ardıcıl davam etdirilmiş, informasiyaların mütəmadi olaraq yenilənməsi, elektron kitabxana bazasının davamlı zənginləşdirilməsi, elektron müraciət səhifəsinin fəaliyyəti daim diqqət mərkəzində saxlanılmışdır.

Bu il Müvəkkil təsisatı ilə muxtar respublikanın kütləvi informasiya vasitələri arasında mövcud əlaqələr davamlı təkmilləşdirilərək daha da gücləndirilmiş, təsisatın fəaliyyəti ilə bağlı kütləvi informasiya vasitələrində 145, Müvəkkilin rəsmi internet səhifəsində 156, habelə muxtar respublikamızın müasir inkişafı, tarixi-mədəni irsi və turizm potensialının təbliği ilə bağlı 192, ümumilikdə isə 493 informasiya kütləvi informasiya vasitələri və təsisatın rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Muxtar respublikanın sosial-iqtisadi inkişafı, bütün sahələrdə müasir çağırışlara əsaslanan yeni üsul və sistemlərin tətbiqi, habelə dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsi və etibarlı müdafiəsinin davamlı inkişafına geniş imkanlar yaratmışdır.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkil təsisatı bundan sonra da insan hüquqlarının müdafiəsi işinin davamlı inkişaf etdirilməsi və təkmilləşdirilməsi, həmçinin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində səylərini daha da artıracaqdır.

## Bələdiyyə seçkiləri Naxçıvan Muxtar Respublikasında azad, şəffaf və demokratik şəraitdə keçirildi



1991-ci ildə ölkəmizin tarixi dövlət müstəqilliyi bərpa edildikdən və 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ictimai-siyasi həyatımızın bütün sahələrində əsaslı sosial-iqtisadi, həmçinin hüquqi islahatlar həyata keçirilib. Belə islahatların mühüm nəticələrindən biri də müstəqil Azərbaycanda ilk dəfə yerli özünüidarəetmə institutu olan bələdiyyələrin yaradılmasıdır.

Bələdiyyələrin statusu 1995-ci il 12 noyabr tarixdə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapıb. 1999-cu ildə isə respublikamızın hər yerində bələdiyyələrə ilk seçkilər keçirilib. Qeyd edək ki, bu seçkilərdən ötən dövr ərzində ölkəmizdə, eləcə də muxtar respublikamızda zəngin qanunvericilik bazasına əsaslanan yerli özünüidarəetmə sistemi formalaşıb, vətəndaş təşəbbüskarlığı üçün əlverişli şərait yaradılıb.

Dekabrın 23-də ölkəmizdə, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında növbəti bələdiyyə seçkiləri də mütəşəkkilliklə keçirildi. Seçicilərin seçki hüquqlarından istifadə edərək seçdikləri namizədlərə səs vermələri üçün məntəqələrdə zəruri olan bütün şərait yaradılmışdı.

Seçkilərin qanunvericiliyə uyğun olaraq azad, ədalətli və şəffaf keçirilməsi, seçicilərin səsvermədə fəal iştirakı, vətəndaşların sərbəst seçim etmələri demokratiyanın təmin edilməsinin və onun inkişafının əsas göstəricisi kimi bir daha özünü təsdiq etdi.

Sevindirici haldır ki, digər seçkilərdə olduğu kimi, 23 dekabr bələdiyyə seçkilərində də Naxçıvan Muxtar Respublikasının seçiciləri səsvermə prosesində xüsusi fəallıq nümayiş etdirdilər. Qəzetimiz çapa hazırlanarkən Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımovla əlaqə saxladıq. O bildirdi ki, muxtar respublika üzrə 112 min 277 nəfər, yəni seçicilərin 41,4 faizi səsvermədə iştirak edib. Seçki günü muxtar respublikamızın şəhər və rayonlarından hazırladığımız reportajları oxuculara təqdim edirik.

*Ardı 4-cü səhifədə*

## Naxçıvan şəhəri

***Ölkənin ictimai-siyasi həyatında mühüm əhəmiyyətə malik hadisələrdən biri hesab olunan bələdiyyə seçkiləri Naxçıvan şəhərində də yüksək əhval-ruhiyyə ilə keçirildi. Bu əlamətdar hadisə ilə bağlı ilk olaraq 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinə üz tuturuq. Dairə seçki komissiyasının sədri Çingiz Məmişov bildirir ki, bu seçki dairəsi üzrə 37 məntəqədə 44 min 455 seçici qeydiyyata alınıb. Onlardan 504-ü ilk dəfə olaraq bu hüquqdan istifadə edəcək. Naxçıvan bələdiyyəsi üçün 29, Əliabad bələdiyyəsi üzrə isə 13 nəfərin namizədliyi qeydə alınıb. Seçki prosesinin necə keçirildiyini izləmək üçün müşahidələrimizə Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində yerləşən 9 saylı seçki məntəqəsindən başlayırıq.***

Qaydalara uyğun olaraq 4-9 saylı məntəqə seçki komissiyasının sədri Aynur Rzayeva komissiya üzvləri qarşısında seçki qutularının möhürlənməsini həyata keçirir. Məntəqədəki şəffaf seçki qutuları ayrı-ayrılıqda möhürlənir, seçkiyə vaxtında – saatlar 8⁰⁰-ı göstərəndə start verilir. Səhər saatlarından başlayaraq məntəqəyə seçicilərin axını müşahidə edilir. Öyrənirik ki, bu məntəqədə 934 seçici qeydiyyatdadır. Onlardan 10-u ilk dəfə səs verəcək.

Müşahidələrimizi "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin binasında yerləşən 4-17 saylı seçki məntəqəsində davam etdiririk. Məntəqənin yerləşdiyi əraziyə yaxınlaşarkən burada seçicilərin çoxluğu və yüksək əhval-ruhiyyə ilə seçkiyə qatılmaq istəkləri diqqətimizi çəkir. Artıq saat $12^{00}$-dək 351 seçici səs verib. Onlardan Əyyub İsmayılov seçki prosesində iştirak etməyi özü üçün vətəndaşlıq mövqeyi, mənəvi borc hesab edir. Deyir ki, seçimini edərkən bələdiyyələrdə sakinlərin istək və arzularını yerinə yetirə biləcək namizədlərə səs verib.

Qeyd edək ki, bu məntəqə üzrə seçicilərin sayı 1398-dir. Quraşdırılan veb-kamera seçkilərin gedişini internet vasitəsilə də izləməyə imkan verir. Bu da seçkilərin şəffaf və demokratik şəraitdə keçirilməsinə xidmət edir.

1292 seçicinin qeydiyyatda olduğu Naxçıvan Tibb Kollecinin binasında yerləşən 4-12 saylı seçki məntəqəsində də qələbəlik müşahidə olunur. Seçicilərdən yaşı 75-i haqlamış Tofiq Bayramov qeyd edir ki, komissiya üzvlərinin qanunauyğun fəaliyyəti vətəndaşların sərbəst şəkildə öz iradələrini ifadə etmələrinə və istədikləri namizədlərə səs vermələrinə şərait yaradıb. Buraya gələn hər kəs yaradılan bu şəraiti yüksək qiymətləndirir.



Seçici Vəli Baxşəliyev deyir ki, seçki prosesi Azərbaycan Respublikasının seçki qanunvericiliyinə tam uyğundur. Mən də bələdiyyə üzvlüyünə namizədlər arasında ən layiqli bildiklərimə səs verdim. İnanıram ki, seçdiyimiz bələdiyyə üzvləri şəhərimizin daha da inkişafına və gözəlləşməsinə xidmət edəcəklər.

Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə yerləşən 4-28 saylı seçki məntəqəsində seçki siyahısında 1471 seçicinin adı var. İlk dəfə seçki hüququndan istifadə edən Zərifə Sarıyeva deyir ki, buna görə həm sevincli, həm də həyəcanlıdır. Onun fikrincə, bələdiyyələr əhatə etdiyi ərazilərdə müsbət yeniliklər yarada bilərlər. Ona görə də seçkilərdə iştirak edərək layiqli namizədlərə səs vermək lazımdır.

## Şərur rayonu



Həmin gün Şərur rayonunda da seçici fəallığı özünü göstərirdi.

2 saylı Şərur Seçki Dairəsi 53 seçki məntəqəsini əhatə edir. Bu məntəqələrin 5-də seçkiləri izləmək üçün veb-kamera quraşdırılmışdı. Dairə üzrə 43 min 142 seçici qeydə alınmışdır ki, onların 709-u seçkilərdə ilk dəfə iştirak edirdi.

Rayonun Çomaxtur kəndində yerləşən 2-10 və 2-11 saylı seçki məntəqələrində də mütəşəkkillik müşahidə olunurdu. 2-10 saylı məntəqədə də 1277 seçicinin səs verməsi üçün hərtərəfli şərait yaradılmış, seçkilərin şəffaf və heç bir qanun pozuntusuna yol verilmədən keçirilməsi üçün lazımi işlər görülmüşdü.

2 saylı Şərur Dairə Seçki Komissiyasının əhatə etdiyi Qarxun, Məmmədsabir, Sərxanlı və digər kəndlərdəki seçki məntəqələrində də seçicilər öz vətəndaşlıq mövqelərini nümayiş etdirirdilər.

1 saylı Şərur-Sədərək Dairə Seçki Komissiyasının əhatə etdiyi Şahriyar, Kərimbəyli, Axaməd, Dəmirçi, Maxta, Zeyvə, Düdəngə, Cəlilkənd, Mahmudkənd yaşayış məntəqələrində də mütəşəkkillik təmin olunmuşdu.Həmin komissiyanın Şərurda yaradılmış 27 məntəqəsində 27 min 940 seçiciyə qeydə alınmış 214 namizəd arasından 153 bələdiyyə üzvünü seçmək hüququ verilmişdi. 4 məntəqədə veb-kamera quraşdırılmışdı.

Seçki məntəqələrində səsverməyə gəlmək imkanı olmayan və bu barədə məntəqə seçki komissiyalarına əvvəlcədən müraciət etmiş ahıl vətəndaşların, qocaların və xəstələrin səs vermələri üçün daşınan qutulardan istifadə olunurdu.

Ümumiyyətlə, 2 saylı Şərur və 1 saylı Şərur-Sədərək Dairə Seçki komissiyalarının əhatə etdiyi bütün məntəqələrdə seçkilər demokratik şəkildə keçirilirdi.

3 saylı Babək-Kəngərli-Naxçıvan Seçki Dairəsinin 3-42 saylı seçki məntəqəsi üzrə 1305 seçici qeydiyyata alınmışdı ki, onlardan 8-i ilk dəfə öz seçki hüququndan istifadə edirdi. Məlumat üçün deyək ki, bu məntəqə də daxil olmaqla, seçki dairəsi üzrə, ümumilikdə, 5 veb-kamera quraşdırılmışdı. Babək qəsəbəsində yerləşən 3-41 və 3-45 saylı seçki məntəqələrində də seçkilərə hazırlıq Seçki Məcəlləsinə uyğun aparılmışdı.

Dairənin 3-33 saylı seçki məntəqəsində də olduq. Bu məntəqədə 457 seçici qeydiyyata alınmışdı və onlardan 5-i ilk dəfə seçkilərdə iştirak etmək hüququ qazanmışdı.

5 saylı Şahbuz-Babək Seçki Dairəsinin Babək rayonunun Sirab kəndində yerləşən 5-26 və Cəhri kəndindəki 5-31 saylı seçki məntəqələrində də seçicilər mütəşəkkillik nümayiş etdirirdilər. Məntəqələrdə şəffaflıq hökm sürürdü və heç bir qanun pozuntusu qeydə alınmamışdı.

## Babək rayonu



3 saylı Babək-Kəngərli-Naxçıvan Dairə Seçki Komissiyasının sədri Zahid Ələkbərov məlumat verdi ki, dairənin dislokasiyasına daxil olan məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri arasında seçkiqabağı maarifləndirmə işləri aparılıb. Öyrəndik ki, dairə üzrə 49 seçki məntəqəsi var. Seçki məntəqələrinin 21-i Babək, 20-si Kəngərli rayonlarında, 8-i isə Naxçıvan şəhərində fəaliyyət göstərir. Həmin məntəqələrdə seçkilərin uğurla başa çatması üçün hərtərəfli şərait yaradılıb.

## Ordubad rayonu

Seçki günü Ordubad rayonunun mərkəzində və kənd yaşayış məntəqələrində qaynarlıq, coşqunluq hökm sürürdü. Bu, seçicilərin bələdiyyə seçkilərində fəallığının ifadəsi kimi diqqəti çəkirdi. Hiss etmək çətin deyildi ki, insanlar özlərinin yerli problemlərinin həllində, üzləşdikləri bəzi çətinliklərin aradan qaldırılmasında bələdiyyələrin qüvvəsinə inanırlar.

Qeyd edək ki, budəfəki bələdiyyə seçkilərində 7 saylı Ordubad-Culfa Seçki Dairəsi üzrə 35 min 42 seçici müəyyənləşdirilmişdi. Onlar 52 məntəqədə səs verirdilər. Məntəqələrin 45-i Ordubad rayonunda idi. Dairədə rayon üzrə 431 nəfər bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmışdı. Onlardan 276 nəfəri ən çox səs toplamalı idi.



Rayon mərkəzində bələdiyyə seçkiləri üçün 6 məntəqədə səs verilirdi.

7-1 saylı seçki məntəqəsində 1288 seçicinin səs verməsi üçün hərtərəfli şərait yaradılmışdı.7-2 saylı seçki məntəqəsində də fəallıq müşahidə edilirdi.

7-25 saylı seçki məntəqəsində də heç bir qanun pozuntusu müşahidə etmədik, seçicilərin sərbəst surətdə səs vermələrinə, öz iradələrini ifadə etmələrinə tam şərait yaradıldığını gördük.

## Culfa rayonu

6 saylı Culfa-Babək Seçki Dairəsindəki məntəqələrdən 16-sı Babək, 23-ü Culfa rayonunda yerləşir. Dairə üzrə, ümumilikdə, 34 min 555 seçici qeydə alınmışdır ki, bunun 19 min 494 nəfəri Culfa rayonunu təmsil edirdi. Onlardan 380-i səs vermək hüququndan ilk dəfə istifadə edirdi. Şəffaflığı təmin etmək məqsədilə 6-16, 6-17, 6-21, 6-22, 6-26 saylı məntəqələrdə veb-kameralar quraşdırılmışdı.

Dairənin 1464 seçicisi olan 6-16 saylı seçki məntəqəsində səhər saat $8^{00}$-dan başlayaraq mütəşəkkillik müşahidə edilirdi. Seçicilər məntəqəyə yaxınlaşır, istədikləri namizədə sərbəst səs verirdilər.

6-26 saylı Saltaq və 6-21 saylı Ərəzin kəndlərindəki seçki məntəqələrində də seçkilərin başlanmasından qısa müddət keçməsinə baxmayaraq, seçicilərin böyük bir hissəsi səs vermişdi.



Rayon ərazisində yerləşən bütün seçki məntəqələrində seçicilər yüksək fəallıq nümayiş etdirir, hər kəs öz namizədinə səs verirdi. Onu da qeyd edək ki, seçki məntəqələrində sağlamlıq imkanları məhdud seçicilərin də səsvermədə iştirak etmələrinə əlverişli şərait yaradılmışdı.

## Kəngərli rayonu

Kəngərli rayonunda 19 min 174 seçicini əhatə edən 18 seçki məntəqəsi təşkil edilmişdi. Saat $8^{00}$-dan başlayaraq seçicilər dəstə-dəstə seçki məntəqələrinə gəlirdilər.



3-4, 3-5, 3-6 saylı məntəqələr Qarabağlar kəndində idi. Kənd mərkəzində yerləşən 3-5 saylı məntəqədə ilk səs verənlərdən olan ağsaqqal Rafiq Ağayev seçiləcək bələdiyyə üzvlərindən daha uğurlu fəaliyyət gözlədiklərini ifadə etdi, namizədlərə müvəffəqiyyətlər arzuladı.

Rayon mərkəzi Qıvraq qəsəbəsindəki 3-9 saylı seçki məntəqəsinin önündə günortaya yaxın qələbəlik var idi. Seçicilər səs vermək üçün erkən saatlardan binanın qarşısına toplaşmışdılar. Aldığımız məlumata görə, saat $10^{00}$-a kimi bu məntəqə üzrə 1036 nəfər seçicinin 6,4 faizi səsvermədə iştirak etmişdi. Eyni fəallığı 3-8 və 3-17 saylı seçki məntəqələrində də gördük.

Şahtaxtı kəndində də səhər saatlarından seçki məntəqələrinə sakinlərin axını davam edirdi. Kənddəki 3-12 saylı məntəqədə artıq saat $12^{00}$-dək seçicilərin 18,5 faizi səs vermişdi. Seçki günü Kəngərli rayonunda müşahidə olunan fəallıq rayonda bələdiyyələrin yerli özünüidarəetmədə nə qədər mühüm funksiya daşıdığını deməyə əsas verir.

## Şahbuz rayonu

Növbəti bələdiyyə seçkiləri Şahbuz rayonunda da öz mütəşəkkilliyi ilə yadda qaldı. Məlumat üçün qeyd edək ki, 5 saylı Şahbuz-Babək Seçki Dairəsinin tərkibində olan 46 seçki məntəqəsinin 37-si daimi fəaliyyət göstərir. Həmin məntəqələrin 25-i Şahbuz, 12-si isə Babək rayonundadır. Dairə üzrə 30104 nəfər seçici var. Bunun 14887 nəfəri Şahbuz, 12487 nəfəri Babək seçki məntəqələrində qeydə alınıb.



Şahbuz rayonunda yaşı 100-dən yuxarı olan 1 nəfər seçici vardır. 110 yaşlı Ceyran Qafarova 1 saylı Şahbuz şəhər seçki məntəqəsində səsvermə hüququndan istifadə edib.

Dairə üzrə bələdiyyə üzvlüyünə, ümumilikdə, 315 nəfərin namizədliyi irəli sürülmüşdü. Namizədlərin 246-sı Şahbuz, 69-u Babək rayonu üzrə qeydə alınmışdı.

5-2, 5-4 və 5-5 saylı seçki məntəqələrində olduq. Səsvermənin mütəşəkkil keçirildiyini müşahidə etdik.

İnanırıq ki, seçiləcək bələdiyyə üzvləri Şahbuz rayonundakı 22 bələdiyyədə yerli əhəmiyyətli məsələlərin həllinə çalışacaqlar.

## Sədərək rayonu

1 saylı Şərur-Sədərək Seçki Dairəsinin bu rayonda 7 məntəqəsi fəaliyyət göstərir. Məntəqələrin hamısı zəruri avadanlıq və materiallarla təmin edilmişdi. Seçki məntəqələrində səsverməyə gəlmək imkanı olmayan və bu barədə məntəqə seçki komissiyalarına əvvəlcədən müraciət etmiş ahıl vətəndaşların, qocaların və xəstələrin səs vermələri üçün də şərait yaradılmışdı.1-1 saylı seçki məntəqəsində veb-kamera quraşdırılmışdı.



Adıçəkilən seçki məntəqəsində 1473 seçici qeydə alınmışdı. Saat $10^{00}$-da artıq məntəqədə 120 nəfər səs vermişdi. Digər seçki məntəqələrində də əhalinin fəallığı yüksək idi.

1-3 saylı seçki məntəqəsində 1451, 1-5 saylı seçki məntəqəsində 1440, 1-6 saylı seçki məntəqəsində isə 1487 seçici qeydə alınmışdı.

1-2 saylı seçki məntəqəsində 1478 nəfər səs verəcəkdi. Saat $10^{00}$-dək 125 nəfər səsvermədə iştirak etmişdi.

Bu məntəqədə ailəsi ilə birlikdə səsverməyə gəlmiş Bəxtiyar Mahmudov seçki məntəqəsində yaradılan şəraitdən, aşkarlıqdan razılıqla danışdı.

* * *

Müşahidələrimizə əsasən demək olar ki, dünən keçirilən bələdiyyə seçkilərində muxtar respublikanın bütün seçiciləri yaradılan demokratik şəraitdən səmərəli istifadə edərək öz iradələrini ifadə ediblər.

**Xəbərlər şöbəsi**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 873